

Dadaş N. Məmmədov

# XOCALI *harayı*



# XOCALI HARAYI

Xocalı faciəsi rəssam Nazim Məmmədovun gözləri ilə

Azərbaycan Milli Kitabxanası

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bu kitabda Məmmədov Nazim Dadaş oğlunun bütün reproduksiya və fotoşəkilləri R. Mustafeyev adina Azərbaycan Dövlət İncəsənət Muzeyinin rəsmi icazəsi ilə istifadə olunmuşdur.

XOCALI HARAYI

© Dadaş N. Məmmədov, 2010

Azərbaycan Milli Kitabxanası

.... 1992-ci ilin soyuq fevral günlərindən biri... rəssam Nazim Məmmədov bütün günü gah emalatxanasındakı radiogəbuldicidən, gah da televizordan Xocalı həyəcanını izləyirdi. Məşhur telejurnalist Çingiz Mustafayevin ictimaiyyətə təqdim etdiyi dəhşətli görüntülərlə tanış olandan sonra onun halı dəyişmişdi. Qədim türk ocağı Xocalıda baş verən bu soyqırımın Nazim Məmmədov kimi həssas bir insana necə təsir etdiyini təsəvvür etmək o qədər də çətin deyildi. Zahirən qapalı insan təsiri bağışlayan rəssamın bir az da içinə çəkildiyi, öz aləminə qapandığı kifayət qədər duyulan idi. Bu sarsıntılı hal ilin sonuna kimi davam etdi. Faciənin ildönümünə az qalmış o, keçirdiyi psixoloji yaşantılar molbert üzərindəki kətanda əbədiləşdirdi və hamı bildi ki, ondakı bu özünəqapanma səbəbsiz deyilmiş: Xocalı faciəsi sanki bütün dəhşəti ilə onun içinə çökmüşdü. O gecə-gündüz bu mənəvi ağrılarla yaşayırdı – orada şəhid olan soydaşları haqqında düşünürdü. 2004-cü ildə ömrünün yetmişinci baharında bu ağrılar sona yetdi – onun da ömrü sona yetən kimi... Amma ölümündə iki il əvvəl soyqırımın 10-cu ildönümündə Xocalı faciəsinə həsr et-

Azərbaycan Milli Kitabxanası

diyi 40-a yaxın rəngkarlıq və qrafik əsəri bir sərgi şəkilində ictimaiyyətə təqdim etdi bu, onun həyatının ən unudulmaz anları idi. Simfonik orkestrin ifa etdiyi kədərli musiqinin müşayiəti ilə dramatizmlə zəngin olan əsərlərlə üz-üzə, göz-gözə qalan tamaşaçıların heyranlığı təbii idi. Salondakı tamaşaçı qələbəliyi qarşısında musiqili qəmgin aura faciəni törədənlərə etiraz kimi səslənirdi. Həmin gün rəssamı duyğulandıran bir də o idi ki, tamaşaçılar arasında ona öz təşəkkürünü bildirən Xocalı sakinləri də vardı.

Nazim Məmmədovun dünyasını dəyişməsindən dörd ay sonra 2005-ci ildə rəsmi qurumlar onun "Xocalı harayı" sərgisini ictimaiyyətə təqdim etdi. Bu sərgidə də əvvəlki kimi tələbkar tamaşaçılar tərəfindən rəqabətlə qarşılanmışdı. Amma bu dəfə tamaşaçıların təşəkkür payını Nazim yox, xanımı və oğulları qəbul edirdi.

Nazim Məmmədovun "Xocalı" salnaməsi xalqın tarixini əbədiləşdirmək mənasında təqdir olunası hadisədir. Etiraf edək ki, bir dövlət kimi Azərbaycanın tarixi nə qədər qədimlərə gedib çıxsa da, bu tarixin unudulmaz anları sənətdə,



o cümlədən rəssamlıqda öz bədii həllini layiqincə tapmayıb. Görünür elə "Türklər tarix yaradıblar, tarix yazmayıblar" deyimi yox yerdən yaranmayıb. Düzdür, tarixi hadisələrin və döyüş səhnələrinin bədiiləşdirilməsinə qədim miniatürlərdə və Şəki də Xan sarayının tərtibatında ümumiləşdirilmiş şəkildə cəhdlər edilib. Bu ənənə bir qədər yeniləşmiş formada XX əsrin əvvəllərində Bəhruz Kəngərli (1892 – 1922) tərəfindən davam etdirilib. Naxçıvanda yaşayan gənc rəssam 1915-1918-ci illərdə Ermənistandakı dədə-baba torpaqlarından qovularaq Cavid yurduna pənah aparan azərbaycanlı türklərin rənglər vasitəsilə real, bərbəzəksiz obrazlarını yaradıb və əslində, faciələrimizin bədii sənədləşdirilməsinin əsasını qoyub. Ölkəmizin bolşevik istilasından əvvəl yaranan bu əsərlər elə kommunist ideologiyasının mövcud olduğu dövrlərdə də yeganə olub və bəzən can olunanda da obrazların kimliyi ört-basdır edilib, növbəti erməni-müsəlman qırğınının unutdurulmasına səy göstərilib. Cidanı çuvalda gizlətmək mümkün olmadığı kimi ermənilərin axırıncı məkrindən sonra isə yaradıcı insanlara gördüklərini, eşitdiklərini təsvir etməyə heç kim



Azərbaycan Milli Kitabxanası

qadağa qoya bilmədi. Baxmayaraq ki, bəzi qüvvələr sənət əsərində 20 yanvar və Qarabağ faciəsinin baiskarı Moskvanı ittiham edəcək məqamlar istəmirdilər. Şahidlər xiyabanı ilə bağlı abidə üçün elan olunan müsabiqənin layiqli əsərlər olmasına baxmayaraq nəticəsiz qalması da buna sübutdur. Vaqif Ucatayın ittihamedici "Xocalı" plakatının uzun müddət can edilməməsi bunun nəticəsi idi. Nəhayət, bu qorxu-hürkü xofu tədricən "yuxarılardan" da uzaqlaşdı. Qarabağ müharibəsini və 20 yanvar hadisəsini əhatə edən "Faciələrimiz", "Qarabağ harayı", "Xocalı" və s., sərgilər təşkil olundu. Öncə qeyd etdiyimiz kimi, Nazim Məmmədovun 2002-ci ildə Azərbaycan Dövlət İncəsənət muzeyinin salonlarında açılan "Xocalı harayı" sərgisi bu qanlı faciəyə həsr olunan əhatəli ekspozisiyasından sonra ikinci bir möhtəşəm sənət baxışı oldu. Etiraf etmək lazımdır ki, çoxları üçün bu sərgi yeni olmaqla bərabər, həm də gözlənilməz idi. Təkcə ona görə yox ki, burada Xocalı faciəsində təkcə bir rəssamın həsr etdiyi 40 yaxın rəngkarlıq və qrafika əsəri göstərilirdi. Əslində, bu təəccüb ona görəydi ki, hamı Nazim Məmmədovu məşhur multiplikasiya filmlərinin rəssam-rejissoru,

Azərbaycan Milli Kitabxanası



kitab tərtibatçısı-illüstrasiyaçısı və abstraksionist rəssam kimi tanıyırdı. Odur ki, bu yerdə qısa da olsa, sənətkarın ömür tarixçəsini vərəqləmək yerinə düşərdi...

Bakıda dünyaya göz açan Nazim Məmmədov qədim şəhərin bənzərsiz memarlığını, Xəzərin qumlu sahillərini özünə ilk və heyrətamiz gözəllik qaynağı hesab edib. Bu gözəlliklər qarşısında heyranlığını gizlədə bilməyən Nazim rəssamlıq məktəbinə üz tutdur. Ancaq sən saydığını say, gör fələk nə sayır. Belə ki, 1957-ci ildə Əzim Əzimzadə adına rəssamlıq məktəbini bitirən Nazim Məmmədov 1961-ci ildən artıq "Azərbaycanfilm" kinostudiyasında çalışırdı. Moskvadakı "Soyuzmultfilm" studiyasında iki illik kursu bitirən gənc rəssam milli multiplikasiyanın yeni nümunələrinin yaradıcılarından oldu. Bakıda ilk multiplikasiya filminin çəkilməsini həm 1930-ci ildə təşəbbüs göstərilmişdi, sonradan kadr çatışmamazlığından bu prosesə uzun müddət fasilə verilmişdi. 1968-ci il Azərbaycan multiplikasiyanın bərpa ili oldu. Bu studiyada xalq nağılı əsasında çəkilən "Cırtdan" filmi milli ruhlu özündə əks etdirən əsl sənət nümunəsi oldu. Onun yaradıcısı isə 35 yaşlı rəssam Nazim Məmmədov



Nazim Məmmədov
1934 - 2004



idi. Əfsuslar olsun ki, filmin çəkilişi başa çatmadı. Nəhayət, bir il sonra, 1969-cu ildə Seyid Əzim Şirvaninin yazdığı "Ayı və siçan" təmsili Azərbaycanın ilk multiplikasiya filmi kimi ekranlara çıxarıldı.

1969-cu ildən başlayaraq o, rejissor, quruluşçu-rəssam və multiplikator kimi 12 bədii multiplikasiya filmi çəkib. Onların sırasında milli ədəbi nümunələr əsasında yaradılmış koloritli filmlər vardır.

Onun 1991-ci ildə Azərbaycanda ilk dəfə beş hissəli "Göyçək Fatma" multfilm-opera çəkməsi ilə milli kino sənətimizdə yeni önəmli bir hadisənin əsası qoyuldu. 1992-ci ildə Təhsil Nazirliyinin sifarişi ilə 4-cü sinif üçün musiqi dərsliyinin rəssamı olmuşdur.

Nazim Məmmədovun kino sahəsində xidmətləri haqqında söhbətimizi davam etdirək: o, 1961-ci ildən "Azərbaycanfilm"də 40-dan çox elmi-kütləvi filmlərə texniki-multiplikasiyaya quruluş verib. O, eyni zamanda həmin illərdə çox məhşur olan "Mozalan" kinojurnalının "Qozbeli qəbir düzəldər", "Yerli kadr təsdiqə gedir" və bir-neçə sayının çəkilişində yaratdığı animasiya rəsmləri ilə



Azərbaycan Milli Kitabxanası

iştirak edib. Xocalı faciəsi ərəfəsində Nazim Məmmədov "Karvan" multiplikasiya filmini çəkməkdə idi. 1990-cı il Qara yanvardan sonra xalqımızın azadlıq eşqini şəxələndirmək istəyi bu kino əsərində öz bədii təcəssümünü tapmışdı. Əsər 1995-ci ildə ekranlara çıxdı,onun ssenarisini tanınmış şair Vaqif Səmədoğlu yazmışdı , əsərdə böyük bəstəkar Soltan Hacıbəyovun "Karvan" simfonik muğamından parçalar səslənirdi və əlbəttə, bu əsər Nazim Məmmədovun rəssam təxəyyülü ilə ərsəyə gəlmişdi. Xalqımıza qənim kəsilənləri lənətləyən müəlliflər filmə fəlsəfi ton verərək "Karvan"ı zamanın axarı kimi, qarşısı alına bilinməyəcək bir qüvvə kimi təqdim etmişdilər. Nazim Məmmədovun rənglərin, onların plastikasının təzad yaratmaq gücündən istifadə edərək tamaşaçıları sonadək gərginlikdə saxlaya bilmişdi Sonrakı illərdə də o, kino sahəsi ilə yanaşı, rəngkarlıq və qrafika ilə də məşğul oldumuşdur. Müasir Azərbaycan təsviri sənətində Nazim Məmmədovun da öz üslubu, dəsti-xətti var və onun hər bir əsəri sənətsevərlər tərəfindən maraqla qarşılanırdı. Səbəbi bu əsərlərin milli ruhda olması idi. O illərdə (60-70-ci onilliklərdə) bədii axtarışları milli



zaminə yönəltmək qeyri-mümkün idi. Rəngkarlıqda milli qaynaqlara söykənən Mircavad və Tofiq Mircavadov qardaşlarının, Əşrəf Muradoğlunun, Toğrul Nərimanbəyovun əsərləri obyektinə çevrilmişdi, bu əsərlər sosializm realizminə meydan oxuyurdu. Nazim Məmmədov da kitab tərtibatı və filmlərində bu işi davam etdirdi.

Nazim Məmmədov dünyaya, onun təzadlı və çeşidli hadisələrinə uşaqların gözü ilə baxırdı, bu üsul sosializm realizmi prinsiplərinə yad idi. Stilizə, lakoniklik, şərtilik, şux və nikbin rəng həlli onun təqdimatında uşaq duyumunun ifadəsi kimi düşünülsə də, əslində qədim miniatür və xalça sənətinin ənənəvi estetik dəyərlərinin müasir biçimdə şərhi idi. Rəssamın dünyaya uşaq gözü ilə baxması elə milli ənənələrdən, xalq nağıllarından gəlirdi. Milli ənənələri bağlılıq ona 1961-ci ildən "Azərnəşr", "Gənclik" və "Maarif" nəşriyyatlarında çap olunmuş 400-dən çox kitabın və "Azərbaycanfilm"-də çəkilmiş neçə-neçə multiplikasiya filminin hər birində duyulurdu.



Azərbaycan Milli Kitabxanası

Nazim Məmmədovun tərtibatında işıq üzü görmüş bütün kitablar, o cümlədən "Cik-cik xanım", "Qonşular", "Gəncə qapısı", "Yarasa", "Şah və xidmətçi", "Xeyir və şər", "Xoruz" və s. balaca oxuyucuların böyük maraqla oxuduqları kitablar idi.

O çəkdiyi filmlərlə multiplikasiyanın əsasını qoymuşdur . Çünki, kinoda həmin dəst-xətti o açıb, o da bağladı. Rəssamın "Cırtdan", "Humayın yuxusu", "Toplan və onun kölgəsi", "Sehrlənmiş küpə", "Şahzadə qara qızıl", "Tülkü həccə gedir", "Ayı və siçan" filmlərindəki zəngin obrazlar qalereyasını onun nəhayətsiz təxəyyülünün nəhayətsizliyinin ifadəsi hesab etmək olar. Yəgin elə bu səbəbdən də Nazim Məmmədovun dəst-xəttini yaşadan bu filmlər müxtəlif kino-festivallarda Azərbaycan kino məktəbini ləyaqətlə təmsil etmişdir. Diqqət çəkən məqam rəssamın bu sahədə də milli qaynaqlardan əks etdiyi bədii-estetik dəyərləri tətbiq edə bilməsidir. Zahirən rəssamın məşhur olduğu bu sənətdə təbii oxşarlıq duyunca da, fərq də kifayət qədərdir. Rəngkarlıq sahəsində onun üslubunu fərqləndirən başlıca cəhət dəst-xəttindəki şərtiliyi



Azərbaycan Milli Kitabxanası

və dekorativizmi nümayiş etdirən qrafik başlanğıcın kodlaşdırılmış rəmzlərlə zənginləşmiş idi. Bu üç yaxın məziyyətin sintezinin bizim üçün gözlənilməz, rəssam tərəfindən isə yəqin ki, düşünülmüş nəticəsi kompozisiyaların, ayrı-ayrı obrazların dərin psixoloji məna-məzmun daşıyıcısına çevrilməsidir. Bir daha etiraf edək ki, bunu görünən çox qabarıq şərtiliklə ifadə etmək bəlkə də çətindir. Buna nail olmuş Nazim Məmmədov isə təsviri sənətimizdə öz sənətkar məni təsdiqləyə bilmişdir, "Xocalı harayı" silsiləsi bunun ən bariz ifadəsidir:

Yerbəyer eləməmiş sevincimi, dərdimi,
Bir-birindən seçməmiş mərdimi, namərdimi,
Əjdahalar əlindən qurtarmamış yurdumu,
Tanrının qırmancına döndərməmiş ordumu,
Qoy gəlməsin ölümüm, qoy çatmasın əcəlim,
Xocalım, ay Xocalım!
Xocalım, ay Xocalım!

Azərbaycan Milli Kitabxanası

Azf-256402



Xalq şairi Zəlimxan Yaqubun bu sənətkar harayı faciənin yalnız beşinci ilində yazılmışdı. Dəhşətli qətliyamı dünyaya yayılmasından sonra isə rəssam Nazim Məmmədov özü Bakıda olsa da, xəyalən Qarabağda idi, cəsur telejurnalist Çingiz Mustafayevin ölüm təhlükəsi altında çəkdiyi tükürpərdici kadrlar da bir an belə gözünün qarşısından getmirdi. Təzadlı yaşantıları çox vaxt görünən və görünməyən göz yaşlarına çevrilənə qədər təkrar-təkrar molbert qarşısında dayanan rəssam hələ də duyğularını bədiiləşdirməyə tələsmirdi. Daha doğrusu? hələ də faciəyə qapılmış bədii həll axtarışında idi. Çəkəcəklərini bu vaxta qədər istifadə etdiyi özünəməxsus bədii şərhlə bədiiləşdirməyə bir qədər tərəddüd edirdi. Hər halda Xocalı qətliyamı kimi çox dərin bir psixoloji faciəni rəssamın mövcud kinoya və kitaba baxışı ilə ifadə etmək bəlkə də çətin olardı. Geniş bədii ümumiləşdirmə, şərtlik və stilizələrlə bu mövzunu bütün zənginliyi ilə şərh etmək heç də asan deyildi. Faciə yaradıcılığının başlıca və aparıcı mövzusuna çevrildiyindən bu çətinlik Nazim Məmmədovu fikrindən daşındırmadı. Həmişə axtarışlara meyli olan rəssam məhz milli faciəni elə özünün əski

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

mənəvi qaynaqlarımızla səsləşən ənənəvi bədii şərhi ilə ifadə etmək istəyirdi.

Gördüyü bu çətin işin son nəticəsi göstərdi ki, o seçimində yanılmayıb. Doğrudan da, rəssamın təzadlı rəng qovşağından "boylanan" "Xocalı harayı" bütün stilizə və bədii şərtliklərə baxmayaraq təsirli və duyğulandırıcıdır. Lap şairin poetik misralarındakı kimi:

Quruyub cadar olmuş dodaqlara nə deyim?
Kəsilmiş biləklərə, barmaqlara nə deyim?
Qar içində buz olmuş ayaqlara nə deyim?
Yaxınlar eşitmirsə, uzaqlara nə deyim?
Tanrı rəva bilməsin, mən bu dərdlə qocalım,
Xocalım, ay Xocalım!

Azərbaycan Milli Kitabxanası



Rəssamın Xocalı mövzularını əhatə edən yaradıcılığı on ili əhatə edir. Faciənin baş verdiyi andan ömrünün sonuna qədər Xocalı mövzusu onun sənət yanğısını ifadə edən bir mövzuya keçirildi. Onlarla digər sənətkarlarımız da bu mövzuda gözəl əsərlər yazdılar. Dünya da bu faciəyə etinasız qalmadı:

Rori Patriks; jurnalist, İngiltərənin "Frank Layn Nyus" telekompaniyası: "Dünya ictimaiyyətinin gözündə Xocalıdakı cinayətkarlığa heç nə ilə haqq qazandırmaq olmaz...

Anatoli Leven; jurnalist, Böyük Britaniya: "Biz uçaraq Dağlıq Qarabağın qarlı təpələrinə yaxınlaşanda bütün ərazidə sərilmiş meyitlər gördük. Tam aydındır ki, bu, qaçış zamanı güllələnmiş qaçqınlar idi".

A.Belıx, "İzvestiya"nın müxbiri: "...Arabir Ağdama sağ girovlara dəyişdirilmiş meyitlər gətirilir. Amma gecə vəhşətində belə heç xəyala gətiriləsi deyil, çıxarılmış gözlər, sivrilmiş qulaqlar, soyulmuş dərilər, kəsilmiş başlar...İşgəncələrin həddi-hüdudu yoxdur."

"Krua İ; Eveneman" (Paris), 25 mart 1992-ci il: "Ermənilər Xocalı adlı yerə

hücum etmişlər. Bütün dünya eybəcər hala salınmış meyitlərin şahidi oldu."

"Sunday Times" (London); 1 mart 1992-ci il: "Erməni əsgərləri yüzlərlə ailəni məhv etmişlər".

"Times" qəzeti (London); 4 mart 1992-ci il: "Çoxları eybəcər hala salınmışdı, balaca bir qızın yalnız başı qalmışdı".

Bu cür beynəlxalq reaksiyalara baxmayaraq tez-tez faciənin baş vermə səbəbləri və günahkarların kim olması barədə müxtəlif versiyalar irəli sürülür. Elə şairin poetik versiyası da onlardan biridir:

Təzədən yandı xallar muğamın nəvasında,
Bayquşlar ötür bu gün bülbülün yuvasında,
Biqeyrət oğulların şan-şöhrət havasında,
Kəmfürsət övladların vəzifə davasında,
Harayına çatmağa tapılmadı macalım,
Xocalım, ay Xocalım!

Azərbaycan Milli Kitabxanası



Əslində, ən müxtəlif fikir və mülahizələr rəssam üçün təsiredici amil olmamış və o, erməni təcavüzünün ağrılı görüntülərini iç yaşantılarına bələyərək yaddaqalan çoxsaylı rəngkarlıq və qrafika əsərləri yaratmağa nail olmuşdur. Rəssam öz fərdi üslubuna sadiq qalaraq özünəməxsus yolla, bədii ifadə vasitələri ilə Xocalı faciəsinin ən müxtəlif məqamları təsirli bədii lövhələrə çevirə bilmişdir. Bu əsərlərin ən başlıca məziyyəti də onların zahiri və ümumi təsirliliyinin ifşaedici və ittihamedici məna-məzmunla yüklənməsidir. Bunun üçün rəssam facia ilə bağlı ekranda gördükləri və eşitdiklərini, həm də oxuduqlarını ilkin mənbə kimi qəbul etmişdir. Bu ağır, psixoloji yaşantılar onsuz da Allahın əlində olan ömür payına nə isə əlavə etmədi, əksinə onun, ömür sarayından bəlkə də vaxtsız bir neçə kərpic uçurdu. Zahirən çox sakit və təmkinli görünən rəssamın ömrünün 70-ci baharında haqq dünyasına qovuşması alın yazıcı olsa da, daxilində, iç dünyasında əridə bildiyi və bilmədiyi Xocalı yaşantılarının müqabilində bir qədər az, qəfil itki kimi qəbul edilir. Ancaq düşünürük ki, 40 yaxın əsəri ilə özünə sənət heykəli ucaldan Nazim Məmmədov







1. Əsirlikdə

2. Qadın və div

3. Həndəsə fiqurlar

bəlkə də çoxlarının görə bilmədiyi bir işi gördü. Gəlin bu yerdə rəssamın 2002-ci il sərgisindən sonra bir etirafını dinləyək: "Hadisədən sonra mən daxilimdə elə bil ki, ağır bir yük-ağrı gəzdirirdim. Bu ağrını heç nə ilə ovutmaq mümkün deyildi. Lakin sərgi başa çatdıqdan sonra bu yükü çiynimdən atdım. Rəssam kimi xalqımın qarşısında öz borcumu yerinə yetirdim. Bununla da Xocalının acı taleyini tarixin yaddaşına yazdım." Sizi ötəri də olsa bir daha 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən faciənin xronologiyasına qaytarmaq istəyirik... Həmin gecə erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikası və hərbi heyətinin köməkliyi ilə Xocalı şəhərini zəbt etdilər. Hücumdan əvvəl, fevralın 25-i axşam çağından şəhər toplardan və ağır zirehli texnikadan şiddətli atəşə tutulmağa başlanmışdı. Nəticədə şəhərdə yanğınlar baş vermiş və fevralın 26-sı səhər saat 5 radələrində şəhər tam alova bürünmüşdü. Belə bir vəziyyətdə, erməni əhatəsində olan şəhərdə qalmış təqribən 2500 nəfər əhali yaxınlıqdakı azərbaycanlılar məskunlaşmış Ağdam rayonunun mərkəzinə çatmaq ümidi ilə şəhəri tərk etməyə məcbur olmuşdu. Ancaq bu niyyət baş tutmamışdı. Erməni silahlı dəstələri və motoatıcı alayın hərbçiləri dinc əhaliyə divan tutdular. Bu qırğının nəticəsində 613 nəfər həlak oldu. Onlardan 63-ü uşaqlar, 106-sı qadınlar, 70-i isə qocalar idi. 8 ailə tamamilə məhv edildi. 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdi, 487 nəfər yaralanmışdı, 1275 nəfər əsir götürülmüşdü, 150 nəfər itkin düşmüşdü. Dövlətin və əhalinin əmlakına o vaxtın qiyməti ilə 5 milyard rubl dəyərində ziyan vurulmuşdu.

Rəssam üçün yuxarıda qeyd olunanların nə dərəcədə faciə olduğunu biz onun ayrı-ayrı əsərlərində də izləyə bilərik.

"Kədər" (1996) əsərində həlak olmuş körpəsi önündə kədərlə dayanmış



Azərbaycan Milli Kitabxanası

bir ana təsvir olunur. Uşaq da, ana da rəssam tərəfindən profildən göstərilib. Ananın qara-bozumtul rəngli, əyilmiş qəddi tablonun dominant nöqtəsidir. Bu kədər qaranlığında görünən ananın rəngi, qaçmış bənizi, balasının isə saralmış çöhrəsidir. Ancaq əslində, rəssam bu qismən donuq görünən "qaralmış" mərkəzi çoxmənalı rəmz-atributlarla zənginləşdirməklə onun düşündürücülüyünü təmin etmişdir. Ana kədərinə şahidlik edən gözlər, kədərə sevinən şeytan və digər rəmz-məxluqatlar acıya köklənən tamaşaçını onun nədən formalaşdığını görməyə imkan verir. Şair misralarında əbədiləşən ağı da bu mənada çox təsirlidir:

Çıxmağa yol olmadı,
Qucmağa qol olmadı.
Üzməyə sal qalmadı,
Layla, Xocalım, layla



Azərbaycan Milli Kitabxanası

"Şəhid" (2001) əsərində bəyazlığını itirən köhlən atın belində haqq dünyasına qovuşan bir Xocalılı gənci təsvir olunur. Az qala yumağa dönən atın itkiyə dözümsüzlüyü də təsirlidir. Qaralmağa doğru gedən ayın, təsviri də qəmgin nota köklənməsi rəmzi məna daşıyır.

"Qətliyam" adlı qrafik lövhədə qəfil ölüm təhlükəsinin Xocalının üzərini alması əks olunur. Qəfil güllədən müvazinətini itirən ahıl qocanın, onu dövrələyən arvad-uşağın "Olum ya ölüm?" uğrunda çarpışmasının bədii təqdimatı elə hadisənin özü qədər xaotik və ağlasığmazdır. Reallıqla analitik həndəsi formaların qarşıdurmasını xatırladan "vəhdəti" əslində, faciənin daha görümlü ifadəsi üçün bir bədii fəndir. Elə soyqırımın poetik şərhi də ağrısız deyil:

Töküldülər üstünə quduz kimi, ac kimi,
Şumladılar yer kimi, qırdılar ağac kimi,
Dağıtdılar çöllərə əsir, yalavac kimi.

Səni qaldırammasam başım üstə tac kimi,

Tarixin yaddaşında çətin qalxım, ucalım,

Xocalım, ay Xocalım!



"Haray" əsərində iki şəhidin yolunda kişnərtiləri ilə etirazını bildirən, sözün əsl mənasında haray çəkən üç məşhur Qarabağ atının qabaq qənşər qoyulması düşündürücü və duyğulandırıcıdır....

Rəssamın "Bir ailənin faciəsi" əsərində isə Xocalıda tamamilə məhv edilmiş ailələrin ümumiləşdirilmiş obrazı yaradılıb. Qanına qəltan edilmiş ailə başçısının fiquru ətrafında səpələnmiş müxtəlif yaşlı qadınların kimsəsizləşmiş obrazları açır itkini yaşayan obrazlar kimi qəbul olunurlar.

"Girovlar" (2000) əsərində də digər bir ailənin faciəsi təsirli biçimdə təqdim olunub. Ata ilə iki oğulun qolları bağlı fiqurları, şəhid olmuş iki bacının haray dolu obrazları fonunda gücü yalnız göz yaşını axıtmağa çatan ananın obrazı gözlərimiz qarşısında canlanır.

Azərbaycan Milli Kitabxanası

"Edam" (2000) əsəri də bir ailənin qəmdən yoğurulmuş yaşantılarının açılmasına xidmət edir. Asılmış gəncin bağlı ayaqlarına baxmaqdan özlərini güclə saxlayıb göz yaşı axıdan ana ilə bacının, həyat günəşi qaralmış oğlunun cəsədinə ağrı və heyrət içində göz qoyan atanın hərəkət və baxışlarında psixoloji gərginlik intiqama çağırış kimi səslənir.



Daha bir əsərdə ("Güllələnmə", 2001) isə yağı düşməninin gülləsinə tuş gəlmiş qadınlar təsvir olunublar. İlk baxışda şux rənglər tamaşaçını müəyyən qədər nikbin ovqata kökləsə də, rənglərin həyəcan doğurducu ovqatına görə nahaq qanın rəmzinə çevrilir.

"Vəfalı dostlar" (2001) əsərində rəssam bizi şəhidlik zirvəsinə yüksələn xocalılı müdafiəçinin vaxtsız ölümünə təəssüfləndirir

Rəssamın "Müdafiə" (2001) əsəri Xocalı sakinlərinin fədakarlığına həsr olunub. Əli silahlılarla yanaşı, gücü ancaq daş-kəsəyə çatanların birlikdə küçə döyüşlərində birgə azğın düşmənə qarşı apardığı mübarizənin gərginliyi tabloda dinamik şəkildə təqdim olunub. Yastı damın üzərində dalğalanan milli

bayraq hələ də öz ənənəvi qürur doğurducu görkəmindədir, ucalmaqdadır qaralmaqda olan ayın nurlu işıq seli azalsa da... Bu yerdə deyimləri şairin bir qədər fərqli ifadəsi ilə təsirləndirməmək qeyri-mümkündür:



Bizdən ürək istədin, ürək vermədik sənə,
Bizdən kömək istədin, kömək vermədik sənə,
Bizdən qanad istədin, lələk vermədik sənə,
Aylarla su vermədik, çörək vermədik sənə,
Buraxdıq özbaşına əlimizdən cənnəti,
Sənsiz nəyimə gərək Məkkə görüm, Həcc alım,
Xocalım, ay Xocalım!
(Zəlimxan Yaqub)

Bu misralar nə qədər ağrılı olsa da, kifayət qədər həqiqəti ifadə edir. Nazim Məmmədov bir neçə əsərində ataların "Aslanın erkəyi, dişisi olmaz" deyiminə əyanilik gətirib, desək, səhv etmərik. "Nənənin intiqamı" (2001), "Nənənin ölümü" (2001), "Oğlumun intiqamı" (2001) və s. əsərlər.

Azərbaycan Milli Kitabxanası

"Nənənin intiqamı"nda iki nəvəsinə və onların anasına qıyan düşmənə qarşı ağbirçək nənənin intiqamçı obrazı canlandırılıb. Qolları kəsilmiş gəlinin, baş verənlərə beləkdən təəccüblə göz qoyan körpənin, həyəcan hissinin artıq nə olduğunu bilən oğlan nəvənin əlitüfəngli nənəsinə qısılması ətrafa səpələnmiş ənənəvi atributların Xocalı faciəsinin bir görüntüsünü də ustalıqla ifadə edir



"Oğlumun intiqamı" əsərində isə rəssam düşməninə balta ilə müqavimət göstərən ananın obrazı canlanır. Ön planda əbədiyyətə qovuşmuş oğlunun fiquru, arxa planda isə faciənin dəhşətini duyan gəlin və iki uşağın fəryadı düşmənə nifrət hissi təlqin edir.

Nazim Məmmədov digər bir tablosunda isə ("Nənənin ölümü", 2001) Xocalı uğrunda döyüşlərdə mübarizlik göstərən qoca nənənin şəhidliliyini göstərməyə nail olub. Son ana kimi yeganə silahı olan baltanı əlindən buraxmayan bu qeyrət mücəssəməsinin obrazı necə də təsirlidir.

Yəqin ki, elə belə anaların, nənələrin varlığındandır ki, Xocalı əhalisi soyqırıma məruz qalsa da, yenilməzlik obrazı kimi yaddaşları həkk olublar....

Rəssamın "Xocalı harayı" silsiləsi əsasən ümumiləşdirilmiş, rəmzi obrazlarla dolu tablolardan ibarət olsa da o, qətliyamın adı dillərə düşmüş qəhrəmanlarını elə öz adı ilə təqdim etməyə qərar verib. Onlardan biri o vaxtlar Xocalı hava limanında təhlükəsizlik xidmətinin rəhbəri, ölümündən sonra "Azərbaycan Respublikasının Milli Qəhrəmanı" fəxri adına layiq görülmüş Əlif Haciyevə həsr olunub, "Əlif Haciyevin son döyüşü" (2001) əsərində axırıncı silahdaşını itirsə də, düşmənə qarşı qətiyyətlə mübarizə aparan igid qanun keşikçisinin yaddaqalan obrazı yaradılıb...

Şair də aşağıdakı misraları sanki Əlifin dilindən deyib:

Azərbaycan Milli Kitabxanası

Nə möcüzə göstərim, nə cürə imkan tapım,
Qan itirən kəslərin damarına qan tapım?
Hansı yolu seçim ki, dərdinə dərman tapım?
Amansız cəmiyyətdə sənə nə aman tapım?
Millətəmi güvənim, torpaqdanmı güc alım?
Xocalım, ay Xocalım!
(Zəlimxan Yaqub)

Xocalı faciəsinin dünyaya yayılmasında misilsiz rolu olan telejurnalist Çingiz Mustafayevin portreti də (2002) bizə əzizdir. Əsər rəssam tərəfindən elə obraz kimi, bir qədər ümumiləşdirilmiş biçimdə düşünülüb. Çingizin arxasındakı bəyaz sülh quşu, qarşısındakı al qərənfil bunun görüntüsüdür, bütünlükdə isə həyatının haqqa-ədalətə köklənməsinin obrazlı ifadəsidir. Elə şair də onun gördüyü işi bizcə lazımınca dəyərləndirə bilib:



Azərbaycan Milli Kitabxanası

◂ Çingizin xatirəsi

Nələr görmüşdü, Çingiz,
Nələr, nələr çəkmişdi,
Bir-birindən qorxulu
Mənzərələr çəkmişdi.
Açıq-aşkar nə xəlvətlər,
Nə gizliliklər çəkmişdi...
Vətən imtahanından
Kəsilənlər çəkmişdi.
Aşkarlıqlar içində
Gizlənənlər çəkmişdi.
Hələ öndə olacaq,
Gözlənənlər çəkmişdi.
(Ələkbər Salahzadə)

Rəssamın tək fiqurlu kompozisiyalarla işləmək bacarığı "Xocalı Qavroşu" (2001) əsərində də aydın görünür. Bu əsərdə rəssamın ətrafı ölüm qoxusu bürümüş məkanda milli bayrağımızın dalğalandırması təsvir etməsi sonda qələbənin bizim olacağına inamının ifadəsidir...

"Bu qız üçün Xocalıda gün batdı" (1994) əsəri isə əksinə ən yaxın adamlarının itkisinə tuş gələn gənc qızın obrazını canlandırır. Burada soyuq iblis kölgəsi önündə zəriflik təsvir edilir, deməli, düşmən hələ qüvvətlidir.

"Mən yetim qalmışam" (1995) əsərində ata-anasını itirmiş qızın obrazını canlandırmaq üçün rəssam elə bir məkan seçir ki, orada detallar yarı bölünmüş rəng təzadları ilə əhatə olunub, bu, tabloda, bir nisgil əhval-ruhiyyəsi yaradır. Rəssam faciədən sonrakı altıncı ildə çəkdiyi "Mənim Xocalıdan olan tələbəm" (1998) əsərində isə həyatın davam etdiyini, qətliam yaralarının müəyyən qədər qaysaqlandığını gənc qızın nisbətən işıqlı çöhrəsi ilə göstərməyə çalışır, amma həm özünü, həm də obrazı heç vaxt unudulmayacaq müdhiş fevral yaşantılarından ayıra bilməyib. Odur ki, obrazın ilk baxışda nikbin görünən çöhrəsini əhatə edən məkan da, elə onun özünün geyimi də daha çox kədər ovqatına köklənib. Təkcə elə xaotik biçimli arxa fon-yenidən tamaşaçıya dikilən tək gözün doğurduğu həyəcan əsərin bu gündən çox, keçmişdən xəbər verdiyini təsdiqləyir. Yeri gəlmişkən qeyd edək ki, əsərin adından da göründüyü kimi, rəssam obyekt kimi bu dəfə özünə tələbəsini seçib. Yəqin ki, çoxları üçün onun çoxşaxəli yaradıcılığında pedaqoji fəaliyyətin də yer alması az maraq doğurmayacaq. Ümumiyyətlə, multiplikasiya sahəsində əldə etdiyi bilgiləri və bədii vərdişləri başqaları ilə bölüşmək istəyi onda hələ 1961-ci ildə, Moskvadan qayıtdıqdan sonra yaranmışdı. Amma istək olsa da, onu reallaşdırmaq üçün şərait yox idi. Az sonra rəssam öz istəyini qismən də olsa Azərbaycan televiziyasında (1975-1986-cı illər) "Danışan şəkillər şəhərciyi" verilişini təşkil etməklə həyata keçirdi. O vaxtlar bu verilişin multiplikasiya sənətinin təbliği və bədii imkanlarının nümayişi sahəsində rolu böyük idi. Bu gün bu sahədə fəaliyyət göstərən rəssamların çoxunun həmin verilişlərdən ruhlandıqlarını söyləsək, səhv etmərik. Ən nəhayət, o, çoxdan ürəyində gəzdirdiyi multi-



Azərbaycan Milli Kitabxanası

plikasiya sənətinin tədrisi məsələsinə yaşıl işıq yandıra bildi. 1996 - 1999-cu illərdə o, Ə. Cavad adına mədəni-maarif texnikumunda cizgi filmlərin sirrini tələbələrə öyrətdi. 1996-cı ildən ömrünün sonuna kimi isə Nazim Məmmədov İncəsənət Gimnaziyasında sənətinin incəliklərini şagirdlərinə tədris etdi. "Mənim Xocalıdan olan tələbəm" əsərində qız da həmin tələbələrdən biri idi...

"Xocalı od içində" (2001) əsəri baş vermiş faciəyə görə onu törədənləri lənətləyən, ona biganə qalanları məzəmmət edən bir lövhədir. Kompozisiyanın dominantını təşkil edən ağbirçək ananın haray dolu çağırışını əsir düşmüşlərin ən müxtəlif yönümlü təsvirləri, tamamlayır.

Bu dağların qoynunda yaşıl bir kənd varıydı,
Əlvan saray, güllü bağ, gen aynabənd varıydı,
Neçə dodağı şəkər, söhbəti qənd varıydı,
Neçə incəbel gözəl, zülfü kəmənd varıydı.

Azərbaycan Milli Kitabxanası

Yoxdu daha, nağıldı,
İtdi, batdı, dağıldı.
Mənim şirin qafiyəm, mənim üççə hecalım,
Xocalım, ay Xocalım!



Nazim Məmmədovun "Xocalı 25 fevralın axşamında" (2000) tablosunu faciənin ümumiləşdirilmiş obrazı hesab etmək olar. Əsərin bəyazdan başlayıb qəhvəyi-bənövşəyi-sürməyi ovqata köklənərək sonda qaralan rəng örtüyü əslində ritmik düzülüşünə görə matəm ruhludur. Gecənin qaranlığında quşları pərən-pərən salan, əbədiyyət rəmzini kölgələyən, ona uzanan əlləri buxovlayan və pis niyyətlərə meydan verən işıqlı mənbə yalnız İblisin ikrah doğuran çöhrəsidir. Bütün detallara fəlsəfi məna aşılayan rəssam əslində çox düşündürücü bir lövhə yaratmağa nail olmuşdur.

Rəssamın faciəyə həsr olunmuş ilk əsərlərindən olan "Düşmən gəldi"-ni də (1992) ümumiləşdirilmiş tablo hesab etmək olar. Burada da o, real obrazlar

və rəmzi detalların vəhdətinə nail olaraq gözlənilməz təcavüzün ilk ağrılarını göstərməyə müvəffəq olub. Kompozisiyanı tamamlayan müxtəlif kədər notlarının ən şiddətli məqamlarını əyaniləşdirən şəhid obrazları çox təsirli və duyğulandırıcıdırlar...

Nazim Məmmədov Xocalı qətliyamın da geniş bədii ümumiləşdirmələrini vaxtaşırı fərdi faciələrin əksi ilə də əvəz edib. Onun bu qətldən olan əsərləri kifayət qədərdir.

"Balaları yetim qaldı" (2002) əsərində o, bir Xocalı kişisinin ölümünə kədər hisslərini qatan qonşu qadınları təsvir edib. Oxşar hiss-duyğuları rəssamın "Uşağı öldürdülər" (2002) əsərindən də almaq mümkündür. Burada da şəhid yeniyetməyə acı deyən ana-bacıların kədəri təsirli bədii həllini tapıb. "Qızın ölümü" (2002) əsərində isə düşmən gülləsinə tuş gəlmiş qız balasını əllərinə alıb başı üzərinə qaldıran atanın duruşu duyulası dərəcədə intiqam ruhludur. Ona sığınan gözü yaşlı iki qadının hərəkətlərində də bu intiqam gününün uzaqda olmadığına inam güclüdür... "Qohumlar öldü, mən sağ qaldım" (2001) əsərində



ağbirçək bir qadının itkisinə həmdərd olan tanışlarının kədəri göstərilib.

Nazim Məmmədovun "Göz yaşları" (2002) əsəri çox maraqlı bir kompozisiyaya malikdir. Tablonun üçdə ikisini tutan sahədə şəhid anadan ayrıla bilməyən körpənin və həsrət dolu iri gözə sığal çəkən qızın təsvirləri görünür. Bunun üzərində isə göz yaşı az qala selə dönən qadının profil təsviri verilib. Göz yaşının süzüldüyü hündürlüyü kompozisiya üçün üfüqi bölgü sayan rəssam ondan yuxarı hissəni nikbin ruhlu, alt hissəni isə nisgilli göstərilmişdir. Əslində, atributlara göz qoyarkən hər şey təbii görünür. Yuxarıda həyat işartısını itirməkdə olan kötükləşmiş ağac, işığını bir az qızdıran günəş, aşağıda isə ağrılı yaşantıların selə dönən göz yaşı əks olunub...

Rəssamın "Əsirlikdə" (1998), "Onları Xankəndiyə aparacaqlar" (1999) "383 qadın əsirlikdə" (1999), "Əsirlər" (1999) və "Xilaskarları gözləyən gözlər" (1998) əsərlərini xronoloji baxımdan Xocalı faciəsinin növbəti acı səhifəsi hesab etmək olar. Belə ki, bu şaquli kompozisiyalarda üst-üstə sıralanmış hadisələr, fiqur-obrazlar harayları səmaya ucalsa da, köməksiz qalıb düşmənə



Azərbaycan Milli Kitabxanası

əsir düşən Xocalı sakinlərinin təzadlı yaşantılarını tamaşaçıya çatdırır.

"Əsirlikdə" əsərində düşmən tərəfindən işgəncələrə məruz qalan, taleyin bu ağır sınağına etiraz edən, ağrı-acılarını göz yaşlarına tapşıran ana-bacıların kompozisiya boyu buxovlanmış ayaqları görünən şəhidin obrazı tamamlayır.

"Xilaskarları gözləyən gözlər"də də erməni əsirliyində qalan ümidini itirməyən qız-gəlinlərin intizarı bədii-rəmzi həllini tapıb.

Əsərlərin faciənin ardıcıllığını özündə yaşadanlarının bir qismi Xocalı əhalisinin qaçqınlar sırasına məhkum olmalarına həsr olunub. "Xocalının son günü" əsəri onların ən səciyyəvisidir, desək, səhv etmərik. Çilik-çilik olmuş arzuların üstündən qarlı-çovğunlu soyuq bir gecədə naməlumluğa üz tutan xocalıların həyəcan dolu hərəkətləri sanki qan qoxusu gələn tabloda obrazların daşıya biləcəkləri bütün emosional dəyərlərlə birlikdə ifadə olunub.

Azərbaycan Milli Kitabxanası



Ağzından alov saçan silahlar yedi səni,
İştahalar, nəfslər, tamahlar yedi səni.
Bağışlanmaz, yuyulmaz günahlar yedi səni,
Göydə Allahı danan "allah"lar yedi səni,
Heç Allah götürərmi qisasımı alım?
Xocalım, ay Xocalım!

Rəssamın "Qaçqınlar" (2002) tablosunda isə xocalıların düşmən əhatəsindən xilas olmağa imkan tapmış ilk dəstəsi təqdim olunub. Hələ də həyəcanlı anlarla yaşayan gözü yaşlı, əli uşaqlı qadınların halını görən Ağdam sakininin heyrətli duruşu da onların halına acımağa yönəlib. Əsərdəki yeri qaralmış tale ulduzlarının mövcudluğu da bu insanların istəklərinin ən azı yarısının daşa dəyməsinə işarədir. Ölümün ağzından güclə xilas olmuş bu günahsız insanlar əslində, həmin anda arxada nələrin baş verməsindən xəbərsizdirlər. gəlin yenə şairə müraciət edək:

Bu torpağın canısan,
Selə dönmüş qanısan.
Sən kimin qurbanısan?
Layla, Xocalım, layla.

Kədər düşdü payına,
Səndən çətin yayına.
Hay vermədik hayına,
Layla, Xocalım, layla.

Dünya darmı, görəsən?
Qulaq karmı görəsən?
Allah varmı görəsən?
Layla, Xocalım, layla.

Azərbaycan Milli Kitabxanası





Kədər

Nazim Məmmədovun adlarını çəkmədiyimiz və şərh etmədiyimiz digər əsərlərində də faciənin mənəvi-psixoloji ruhu duyulmaqdadır. Bütün bunların müqabilində o, hələlik Azərbaycan təsviri sənətində həm əhatəliliyinə, həm də bədii – estetik dəyərinə görə özünəməxsus olan "Xocalı harayı" silsiləsini nikbin-mübariz sonluqda tamamlayıb.

"Müstəqilliyimizi qoruyan" (2002) əsəri özünün digər işıqlı gələcək rəmzi olan günəş və bəyaz göyərçinlərin təqdimatı ilə yaddaqalan bir bədii görüntüdür.

Xocalı soyqırımı kimi bir faciə 1918-ci ilin məlum mart qırğınlarından sonra xalqımızın az-az rast gəldiyi hadisələrdən olduğundan qan yaddaşımızda əbədi və dərin iz salacağı şəksizdir. Bunu çoxları indi duysa da, Nazim Məmmədov faciənin miqyasını hələ 1992-ci ildə isti-isti, vaxtında dərk etmişdi və elə qulaqlarında hər an səsi gələn körpə səslərini çığırtılarını, ana fəryadını, ata üsyanını, bəyaz fevral qarının al qana boyanmasını göz yaddaşına yükləməkdən usanmayaraq fərdi fiziki-mənəvi ağrıları hesabına bu gün üçün, gələcək üçün əsərlərində əbədiləşdirmişdir. Bu tablolar əsasi qan qoxusu hopmuş rənglərlə yaradıldığından onun yaddaşlara həkk olacaqları təbiidir. Onların qan yaddaşımızda əbədiləşəcəyini həm də əsərlərin kədərli ovqatı şərtləndirir. Unutmaq olmaz ki, nurlu və işıqlı günlərə gedən yolumuz məhz bu müqəddəs kədəri necə yaşatmağımızdan keçir. Bunun üçün artıq tarixin qan yaddaşına çevrilən Xocalı faciəsini unutmamalıyıq.

Bu yolda – görkəmli sənətkar Nazim Məmmədovun "Xocalı harayı" silsiləsi, bədii salnamə ola bilər.

Mən inanıram ki, Xocalıda batan günəş yenidən parlayacaq. O doğma yerlərdən ayrı düşmüş sakinlərini öz qoynuna səsləyəcək. Azərbaycanın üçrəngli zəfər bayrağı Xocalı səmasında yenidən dalğalanacaq.



Azərbaycan Milli Kitabxanası

Əsərlər

Azərbaycan Milli Kitabxanası



Azərbaycan Milli Kitabxanası

Xocalı qırğını



Ailə əsirlikdə



Onu asdılar

Azərbaycan Milli Kitabxanası





Mən yetim qaldım



Sağ qaldım ,müğənni oldum






Xocalı qavroşu

Azərbaycan Milli Kitabxanası





Xocalının son günü



Qohumlarım öldü ,mən sağ qaldım



Vəfalı dostlar

Azərbaycan Milli Kitabxanası



Nənənin intiqamı

Azərbaycan Milli Kitabxanası



Əlif Hacıyevin son döyüşü





Onu öldürdülər

◂ Qarının ölümü

Azərbaycan Milli Kitabxanası



Oğul anası



Ata, oğul,ər!
Bizi xilas edin!





Fraqment



Azərbaycan Milli Kitabxanası





Fraqment

Azərbaycan Milli Kitabxanası

Xilaskarı gözləyən gözlər





Bu qız üçün Xocalıda gün batdı

Azərbaycan Milli Kitabxanası





Qaçqınlar





Erməni əsirliyində

◂ Xocalı od içində



Onları Xankəndinə aparacaqlar

Uşağın ölümü ▸



Azərbaycan Milli Kitabxanası






Fraqment

◂ 20 Yanvar faciəsini törədənlər
M. Gorbaçyov və Raisa

aycan Milli
Kitabxanası






Düşməndən qaçan
səkkiz qız



Uşaqlarım yetim qaldı

Müstəgilliyimiz



Azərbaycan Milli Kitabxanası



Köməksiz Xocalı



Silahsız Xocalılar

25 fevral,gecə ▸





Azərbaycan
Kitabx





Düşmən gəlir

86



Vətənpərvər qız

Azərbaycan Milli Kitabxanası



Azərbaycan Milli Kitabxanası

Göz yaşları

## Əsərlər haqqında məlumat

Azərbaycan Milli Kitabxanası

92

1.
Müstəgilliyimiz
60x80 Kətan, yağlı boya, 2000
inventar nömrə: R-3061

2.
Uşağın ölümü
160x120 Kətan, yağlı boya
inventar nömrə: R-3090

3.
25 fevral ,gecə
60x80 Kətan, yağlı boya, 1996
inventar nömrə: R-3091

4.
Onu öldürdülər
50x40 Karton, yağlı boya, 2002
inventar nömrə: R-3092

Azərbaycan Milli Kitabxanası

5.
Nənənin intiqamı
70x80 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3093

6.
Xocalı qavroşu
50x40 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3094

7.
Oğul anası
60x80 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3095

8.
Mən yetim qaldım
50x40 Kətan, yağlı boya,1995
inventar nömrə: R-3096

93

94

9.
Uşaqlarım yetim qaldı
50x40 Karton, yağlı boya, 2002
inventar nömrə: R-3097

10.
Çingizin xatırəsi
50x46 Karton, yağlı boya, 2002
inventar nömrə: R-3098

11.
Onları Xankəndinə aparacaqlar
50x40 Kətan, yağlı boya,1997
inventar nömrə: R-3099

12.
Sağ qaldım ,müğənni oldum
50x40 Karton, yağlı boya, 1998
inventar nömrə: R-3100

Azərbaycan Milli Kitabxanası

95

13.
Ailə əsirlikdə
63x21 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3101

14.
Göz yaşları
60x90 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3102

15.
Kədər
80x60 Kətan, yağlı boya, 1996
inventar nömrə: R-3103

16.
Bu qız üçün Xocalıda gün batdı
80x60 Kətan, yağlı boya, 1999
inventar nömrə: R-3104

96

17.
Xocalının son günü
52x90 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3105

18.
Vətənpərvər qız
50x70 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3106

19.
Əlif Hacıyevin son döyüşü
70x50 Karton, yağlı boya, 2002
inventar nömrə: R-3107

20.
Onu asdılar
60x42 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3108

21.
Qarının ölümü
50x40 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3109

22.
Vəfalı dostlar
60x50 Orqalit, yağlı boya, 2002
inventar nömrə: R-3110

23.
Düşməndən qaçan səkkiz qız
50x70 Kətan, yağlı boya, 1996
inventar nömrə: R-3111

24.
Xocalı od içində
84x84 Kətan, yağlı boya, 2001
inventar nömrə: R-3112

97

Azərbaycan Milli Kitabxanası

25.
Silahsız Xocalılar
60x80 Orqalit, yağlı boya, 2001
inventa nömrə: R-3113

26.
Qohumlarım öldü ,mən sağ qaldım
60x70 Orqalit, yağlı boya, 2001
inventar nömrə: R-3114

27.
Qaçqınlar
50x89 Orqalit, yağlı boya, 1992
inventar nömrə: R-3157

28.
Erməni əsirliyində
82x60 Orqalit, yağlı boya, 2002
inventar nömrə: R-3158

Azərbaycan Milli Kitabxanası



29.
Köməksiz Xocalı
52x98 Orqalit, yağlı boya, 2002
inventar nömrə: R-3159

30.
20 Yanvar faciəsini törədənlər M. Gorbaçyov və Raisa (kollaj)
76x37 Kağız, sulu boya, foto 1990-ci illər
inventar nömrə: Q-3711

31.
Ata, oğul, ər! Bizi xilas edin!
140x70 Kağız, sulu boya, 2000-ci illər
inventar nömrə: R-3726

32.
Əsirlikdə (Triptix)
11x13 Kağız, rəngli karandaş, 1995
inventar nömrə: Q-3727/1 (1-3)

33.
Qadın və div (Triptix)
11x13 Kağız, rəngli karandaş, 1995
inventar nömrə: Q-3727/2

34.
Həndəsə fiqurlar (Triptix)
11x13 Kağız, rəngli karandaş, 1995
inventar nömrə: Q-3727/3

35.
Xocalı qırğını
38x56 Kağız, sulu boya, 1993
inventar nömrə: Q-3722

36.
Düşmən gəlir
50x40 Kağız, sulu boya, 1992
inventar nömrə: Q-3728

Azərbaycan Milli Kitabxanası

37.
Xilaskarı gözləyən gözlər
140x70 Kağız, sulu boya, 1998
inventar nömrə: Q-3725

## Mündəricat

XOCALI HARAYI ..............................5
Əsərlər ..............................................47
Əsərlər haqqında məlumat ........91

Azərbaycan Milli Kitabxanası

Kitab atam rejissor-rəssam

Nazim Məmmədovun

əziz xatirəsinə ithaf olunur.

Azərbaycan Milli Kitabxanası

# XOCALI HARAYI

Müəllif: Dadaş N. Məmmədov

Redaktor: Vaqif Yusifli

Fotoqraf: Hüseyn Quluzadə

Bakı 2010

Axf-256402